


*Əkbər Qoşalı (Əkbər Mehdi oğlu Yolçuyev 3 aprel 1973-cü ildə Tovuz rayonunun Qoşa kəndində anadan olmuşdur. Ölkəmizdə və qardaş türk dünyasında tanınmış şair-publisistdir.*

*Dünya Gənc Türk Yazarlar Birliyinin qurucusu və ilk başqanı olan Əkbər Qoşalı, hazırda Azərbaycan Yazıçılar Birliyi İdarə Heyətinin üzvü, Mədəniyyət Nazirliyi İctimai Şurasının sədr müavini, MM İctimai birliklər və dini qurumlar komitəsinin ekspertidir.*

*Onun müəllifi, həmmüəllifi, tərtibçisi, redaktoru və ön söz müəllifi olduğu onlarla kitab gün üzü görüb. Kitabları həmçinin Ankara, Astana, Daşkənd və Kazanda çıxıb. Şeir və hekayələri fərqli dillərə çevrilib, nüfuzlu ədəbi nəşrlərdə yayınlanıb.*

*Azərbaycan, Qazaxıstan, Tatarıstan, Saxa-Yakutiya dövlət başçıları, eləcə də ortaq türk qurumları tərəfindən təltif olunub.*

*Görkəmli şair-publisistimizə gələcəkdə yaradıcılıq uğurları arzulayır və aşağıda onun bir neçə publisistik yazısını oxucularımıza təqdim edirik.*

# YOL YAZISI

Yol… Həyatın sonsuz, qanadlı və həyəcanverici dalğaları üzərində yelkən açan gəmi kimi, insanı həm irəli çağırır, həm də özündə saxlayır, elə bil. Hər bir addımda, bir dərsdir o; bəzən gözdən qaçır sanki, bəzən də könlüncə hiss edərsən onu. Amma hər halda yol, insanın özü ilə görüşü, özündən söz açan bir öykünün yazıldığı yüyrək məkandır.

Yol insanı tərbiyə edir - deyiblər.

Tərbiyə toplumun dənətimində olan bir sürəc deyil. Həqiqi tərbiyə, yalnız qarşıya qoyulan məqsədlərdə yox, yolun özündə saxlıdır. İnsan, yalnız öz yolunu tapmaqla, digər yollara açılan qapıları da kəşf etmiş olur. Həyat ona qarşı qoyduğu əngəlləri aşmağa çalışarkən, onun içindəki qaranlıq nöqtələri işıqlandırar. Tərbiyə, hər addımımızda meydana çıxan qətiyyətin, inamın və dözümlülüyün bir nəticəsi, təntənəsidir. Yol insanı yalnız öz uğurları ilə deyil, düşürdüyü çətinliklər, yanlışlarla da tərbiyə edir. Bəlkə də, insanın ən böyük gücü, öz yanlışlarını yeniləmədən, onlardan dərs çıxara bilməsindədir.

Yol yalnız irəliləməyə xidmət etmir, həm də geri baxmaq üçün fürsətlər yaradır. Bəlkə, geriyə doğru addım atarkən insanoğlu daha çox dərk edir - nəyi düzgün etdiyini, nəyi isə dəyişməsi gərəkdiyini anlayır. Həyatın düzxətli, bərabərsürətli gerçəyi belədir: yalnız geriyə baxaraq, önümüzə qoyulan yeni yollara daha doğru, daha sərbəst addımlar ata bilərik. Geri geridir, irəli də öz irəliliyində… bir də, bu ankı durumumuz, tutumumuz və tutqumuz vardır - bax, bax, ona görə də, üçkordinatlı sistem kimidir mahiyyət yolu - yolçuluğun əsli!

Yolun hər çətinliyi, özündə bir möcüzə saxlayır. Yol insanı nə qədər sınasa da, o, daim özünü kəşf edir, daha dərinə gedir, daha yeni üfüqlərə can atır. Bəlkə də yolun özündə tərbiyənin ən gözəl yönü budur: yalnız məqamları keçmək yox, hər bir məqamda illa özünü bulmaq!..

Yolun insanı tərbiyə etməsi sadəcə fiziki bir məsələ deyil. Bu, bir fəlsəfi təcrübədir. Yol, insanın iç dünyasına daxil olur, onun incikliyini, sevincini, arzularını, qorxularını üzə çıxarır. Bəzən insanlar yolun sonunda yalnız bir yerə çatmağı düşünürlər, amma unudurlar ki, həyatın ən dəyərli anı yolun özüdür. Hər bir addım, hər bir duracaq insanın öz içində bir dönüşdür. Hər bir çətinlik, toxtaqlığın bir ölçüsüdür... Hər bir uğur isə… bir öyrənmə mərhələsidir.

Yol, həyatın ən böyük öyrətmənidir. O, heç vaxt əsla yalan danışmaz, heç vaxt təkrarlamaz, heç vaxt yorğun düşməz. Onun gətirdiyi hər an özüdür, hər zaman fərqlidir. İnsan yolun tərbiyəsini qəbul etdikcə, o, daha da böyüyər, daha da güclü olar. Yalnız belə insan, yolun həqiqi anlamını tutar və özünün heç vaxt təkrarlamayacaq öyküsünü yazar.

Yol, tərbiyənin özü ilə başlayıb, tərbiyənin özü ilə bitir. O, təkcə ayaqların addımladığı bir yer deyil, həm də ruhun, düşüncənin və hisslərin irəlilədiyi bir zaman dilimidir. Hər birimiz o yolda irəliləyir, o yolda tərbiyə olunuruq.

Yollar qurtarmayır, yollar dəyişir; rollar dəyişir, zaman dəyişir, yolçu və yolçuluğun şəkli də dəyişir amma həmişə hər yerdə ən azı bir yol vardır illa…

Yol insanoğlunun böyük ustasıdır.

Yolumuz və zehnimiz açıq olsun!

Əkbər QOŞALI

Bakı-Tovuz yolu, 02.01.2025

**DÜNYA QOPUR, TIFAQ DAĞILIRDI…**

*Öz sağlığım bəhanədir,*
*Yurdum, sənin sağlığına!*
*Xəlil Rza Ulutürk*

Tanrı mənim alnıma, torpağının altında qızıl, üstündə qızıl kimi insanlar olan bir dağ kəndində doğulub-böyüməyi yazıb.

Gözümü açandan insanları dağlarla dərdləşib, uğurlaşan, Günün, Ayın doğuşuna salavat çəkən gördüm… Uzaqlara baxanların da əlini qaşının üstündə gördüm. Ora yenə ordadı, çox şükür, kənddə şenlik var, amma biz o biz deyilik - artıq yaş o yaş deyil…

Uşaqkən böyük şəhərlər haqqında çox az şey bilirdik. Bildiklərimiz böyüklərdən duyduqlarımızdan, qəzetdən, kitabdan oxuduqlarımızdan, ekran-efirdən görüb-götürdüklərimizdən ibarət idi. – Xəzər qıyısında böyük bir şəhər var, orada böyük binalar, heykəllər, zavod-fabriklər, geniş, işıqlı küçələr, tramvay, trolleybus, metro, hava limanı, dəniz limanı var və əlbəttə, universitet və institutlar var… Yalnız könül limanı olan kənd uşağıyçün bunlar nağıl kimiydi...

Tovuzun ermənilərlə sınırda yerləşən o dağ kəndinin vəziyyətdən gələn hay-haraylılığı və doğadan gələn dincliyi bir-birini uyumlu şəkildə tamamlayırdı - indi də elədir. Təbiətin səsi ilə insanların və insanların işlətdiyi texnikanın səsi “bir-birini incitməyən” qəribə harmoni içindəydi sanki; yəqin yenə də, dağlar çayları incitmir və çaylar dağlara sevgi nəğməsi oxuyur…

Kəndin sükutunda, çağlayışında da, dupduru bulaqlarında, yamyaşıl yamaclarında da kainatın sirli nəğmələri yaşayır, qorunur, böyüyür. - Çox az-az (xeyirdə, şərdə) gedib-gəlsək də, yəqin indi də elə olmalı. Elə bil, insan hər daşdan, hər ağacdan doğmalıq görür, doğmalıq öyrənir. Bax, o doğmalıq duyub, görüb-götürdüklərim bir gün məni kənddən uzaqlara, xəyallarımın şəhəri Bakıya uğurladı. Orta məktəbə getdim-gedəli həmin uğurlama üçün oxuyur-öyrənir, çalışırmışam sanıram.

Elə bil kənddən paytaxta gəlməyin bircə yolu varıydı: oxumaq, oxumaq, yenə də oxumaq! - Vəssalam!

Kənddən kənar həyatçün böyüyürdük məgər. Kənddən uzaq düşdüyümüzün ilk həftələrindənsə kəndi özləyir, kəndə dönüşü gözləyirdik… - Nə qəribədir - deyilmi? -

Kəndin doğmalığından, sadəlik və səmimiliyindən, hılə-hələ qohum-qələbədən ayrılmaq asan deyildi, əlbəttə; amma diləklərimiz könlümüzə, könlümüz köksümüzə sığmazdı. Tam da o illərdə bizə öyrədilən dialektik kateqoriləri burada xatırlayalım:

*imkan və gerçəklik,*
*təsadüf və zərurət,*
*səbəb və nəticə,*
*sadədən mürəkkəbə...*

Xəzərin qıyısına, hekayələri çox uzaqlara yayılan gizəmli paytaxt şəhərinə ali təhsil almağa, həyatımı dəyişməyə gəlmişdim. - Bax, bax, nə gözəl: xəyallarımın şəhəri, xəyallarımdakı ali təhsil imkanı… di gəl, ilk baxışdan bu şəhər mənim Bakım deyildi... Kəndin yayda sərin, qışda alışılmış bulaq suyu əvəzinə paytaxtın xlor qoxuyan “krant suyu”, kənddə dörd yanı saran torpağın, çəmənin-çölün, ağacların yerinə şəhərdə asfaltlar, beton divarlar və s… Üstəlik, çər-çevrədə o illər üçün xarakterik olan yabançı dildə danışanların, soyuq və donuq üzlərin çoxluğu… - Yahu, sanki öz paytaxtıma deyil, başqa bir planetə düşmüşdüm…

Bakıya oxumağa gələn ilk və son adammıydım? - Yox, əlbəttə! Əlbəttə, Bakıdan daha uzaqlara oxumağa, işləməyə gedənlər olmuşdu; lakin XX yüzilin 90-cı illəri öncələr olmamışdı, heç sonralar da olmadı… Dünya qopurdu, tifaq dağılırdı!..

Hər şey üst-üstə, yan-yana, ard-arda gəlmişdi…

Beləliklə, mahiyyəti özündən çox böyük olan balaca kənddən ölkənin ən böyük şəhərinə üz tutan mən, öz gələcəyimə gəlmişdim. Oxuyacaq, öyrənəcəkdim. Di gəl, keçidlər, dəyişimlər, fərqliliklər aram-aram deyil, birdən-birə - sanki qoşun-ləşkər kimi tökülmüşdü meydana…

Plan-proqramlı, kitab-dəftərli şəkildə beynimizə yeridilmiş hakim ideologiya birdən-birə mənasız hala gəlmiş, hakim ideoloji şüarların puçluğu dərin bir boşluq yaratmışdı…

Bir yeniyetmə üçün bu dəyişimlərin sağlıqlı idrakı bir yana, nümayişi, təntənəsi, müşahidəsi belə çox ilginc hətta bir xeyli qərib idi.

Akper Qosali: Renessansın "estetik boşluqlar"ı

Renessans dövrü insanlıq tarixində mədəni, elmi və fəlsəfi yüksəlişin altun dövrü sayılır. Bu dövrün əsas özəlliyi insanın kainatda mərkəzi rola sahib olduğu fikrinin gücləndirilməsi və sənət ilə elmin harmonik şəkildə inkişafıdır. Bu mənzərədə Rafaello və Mikelancelonun yaratdığı əsərlər, Renessansın estetik kanonlarının formalaşmasında və dərinləşməsində önəmli rol oynayıb. Onların təsiri olmadan Renessans dövrünü təsəvvür etmək çətindir. Çünki onların yaradıcılığı olmasaydı, estetik sahədə dərin boşluqlar yaranardı.

İnsanın mərkəzi rolunun gücləndirilməsi

Rafaello və Mikelancelonun əsərləri insanı kainatın mərkəzi kimi təqdim edən antropomorfik yanaşmanı təsdiqlədi və gücləndirdi.

• Onların təsirinin olmaması insan fiqurunun fiziki və mənəvi ideal kimi qəbul görməsini çətinləşdirə bilərdi.

• İnsan bədəninin anatomik dəqiqliyini və mənəvi gücünü vurğulayan əsərlər sənət meydanında yer almazdı.

Harmoniya və perspektiv konseptinin çöküşü

Rafaellonun əsərlərindəki harmoniya, tarazlıq və perspektiv Renessans estetikasının əsas dayaqlarından biridir.

• Bu üslub olmasaydı, sənət qarışıqlıq və disharmoniya ilə qarşılaşa bilərdi.

• Perspektivin zəifləməsi təsvir sənətində və memarlıqda məkan dərinliyinin ifadəsində texniki çatışmazlıqlara yol aça bilərdi.

Heykəltəraşlıq və memarlıqda boşluqlar

Mikelancelonun heykəlləri insanın mənəvi gücünü və daxili mübarizəsini təcəssüm etdirərək monumental estetikanın əsasını qoydu.

• Onun təsiri olmasaydı, heykəltəraşlıq daha çox dekorativ xarakter daşıya bilərdi.

• Mikelancelonun "Qutsal Pyotr bazilikası" kimi layihələri olmadan Avropa memarlığında monumental üslub zəifləyə bilərdi.

**Fəlsəfi və simvolik aspektlərin daralması**

Mikelancelonun əsərlərində insanın daxili mübarizəsi və İlahi bağlılığı fəlsəfi simvolizmlə əks etdirilib.

• Bu əsərlərin olmaması fəlsəfi təfəkkürün zəifləməsinə və simvolizmin daralmasına səbəb olardı.

• Dini və dünyəvi elementlərin vəhdəti pozulmuş olardı ki, bu da estetik inkişafın dar məzmun daşıması ilə sonuclanardı.

Təhsilin və sənət patronajının zəifləməsi

Rafaello və Mikelancelonun örnəkləri sənət məktəblərinin yaranmasında və patronajın inkişafında böyük rol oynadı.

Onların təsiri olmadan, sənət təhsili və hamiliyin keyfiyyəti aşağı səviyyədə qala bilərdi. Bu isə digər sənətkarların inkişafını çətinləşdirərdi.

**Özümüz üçün gəldiyimiz sonuclar**

Renessans dövrünün bu dəyərləri bizə göstərir ki, Dirçəliş (Diriliş) yalnız bir sahənin deyil, bütün əməli fəaliyyət sahələrinin harmonik inkişafını ehtiva edir. Əgər biz çağdaş Azərbaycan və Ümumtürk Dirçəlişindən (Dirilişindən) danışırıqsa, Renessansın təcrübələrindən öyrənməliyik.

Bu baxımdan, dövlətlə yanaşı toplumun da üzərinə məsuliyyət düşür. Biz sənətə, təhsilə və elmin inkişafına qayğı göstərərkən, yeni nəsillərin estetik, mədəni və elmi inkişafını təmin etmiş oluruq. Bunun üçün:

• Təhsil və elm sahəsinə ayrılan maliyyə və re-

sursların artırılması,

• Elm, təhsil, mədəniyyət və sənət ocaqları arasında sıx işbirliyinin yaradılması,

• Gənclər arasında yaradıcı və tənqidi düşüncəni inkişaf etdirən təhsil modellərinin tətbiqi,

• Sənətkarların maliyyə dəstək və təşviq imkanlarından məhrum qalmaması,

• Muzeylər, teatrlar, sərgilər və digər sənət institutlarının fəaliyyətinin genişləndirilməsi kimi addımlar atılmalıdır.

Bu tədbirlər toplumun mədəni inkişafını təmin edərək, estetik dəyərlərimizin və yaradıcılıq potensialımızın güclənməsinə gətirib çıxaracaq.

Beləliklə,

Renessansın estetik, fəlsəfi və mədəni yüksəlişini tamamlamış faktorları nəzərə alaraq, biz də öz toplumumuzun mədəni qalxınmasına, estetik dəyərlərinin güclənməsinə töhfələrimizi əsirgəməməliyik.

Ağlın yolu birdir – sənətə və elmə dəyər verən toplumlar gələcəyə daha güclü addımlayır.

## DÖVLƏTİMİZ ZAVAL GÖRMƏSİN!

**Əkbər QOŞALI**

*Həndəsənin hekayəsi və Cəbrin simfoniyası (Kulturoloji baxış)*

Dəqiq elmlərin tarixi insanlığın düşüncə gəzisinin heyrətamiz mərhələlərini əks etdirir. #Evklid həndəsəsi (və ya sadəcə, “Həndəsə”), Qeyri Evklid həndəsəsi və Cəbrin meydana çıxması bu gəzinin dönüm hadisələridir. Onların hər biri yalnız bir riyazi nəzəriyyə deyil, həm də öz dövrünün mədəniyyətinə, fəlsəfi baxışlarına və insanlığın kainatı anlama tərzinə güzgü tutan bir mədəniyyət kodudur.

*Evklid həndəsəsi:*
*Düzlük və tənzimləmə arzusu*

Qədim yunan bilgini Evklidin (b.e.ö. 340 və ya b.e.ö. 315) adı ilə tanınan həndəsə, qədim Doğu dünyasının intizam sevgisini, harmoniyaya və sabitliyə can atmasını əks etdirir. “Elementlər” əsəri sanki kainatın şifrəsini yazmağa çalışan bir kahinin səsi kimidir. Düz xətlər və müəyyən qaydalarla qurulmuş bu sistem, yunan fəlsəfəsinin kosmosu “kainat” (nizam) kimi görmək istəyindən doğulmuşdu.

Evklid həndəsəsi mədəniyyət baxımından “harmoniya” və “qanun” anlayışlarının riyazi ifadəsidir. Bu həndəsə, sanki insan beyninin düşüncələrini düzəldən və xaotik dünyaya nizam gətirən bir alət idi. Həndəsə, mədəniyyətin “düzlük” arzusu idi – insanın öz həyatını, toplumunu və kosmosu anlamaq üçün qurduğu ən sadə model!..

*Qeyri-Evklid həndəsəsi:*
*Əyri xətlərin çağırışı*

XlX yüzildə irəli sürülən Qeyri-Evklid həndəsəsi insan düşüncəsində yeni bir mərhələ açdı. Artıq düz xətlərdən kənara çıxmağın, “əyrilikdə həqiqət axtarmağın” zamanı idi. Bu, yalnız riyazi bir yenilik deyil, həm də mədəniyyətdə bir devrim idi.

Qeyri-Evklid həndəsəsi, sanki mədəniyyətin “bifurkasiyası” idi. - Yəni bir sistemin parametrlərindəki kiçik dəyişikliklərin onun uzunmüddətli davranışını necə dəyişə biləcəyini araşdıran riyazi sahə meydana gəlmişdi. Bu nəzəriyyədən qeyri-xətti dinamik sistemlərdə kritik keçid nöqtələrini bəlirləməkçün istifadə olunur və müxtəlif elmi sahələrdə tətbiq edilir.

Bir anlıq, insanın gələnəksəl təfəkkürdən qurtulub, kainatın çoxşaxəli, qeyri-sabit strukturlarını anlamaq üçün fərqli perspektivlərə üz tutmasını düşünün. Bu, düşüncənin sınırlarını genişləndirən, sabit qaydaların ötəsində daha dərin və əhatəli bir baxış formalaşdıran devrimi təmsil edirdi. Yeni həndəsə, insanın xaotik və qeyri-sabit dünyaya uyğunlaşmasının modelinə çevrildi. Onun fəlsəfi ismarıcı sadə idi: dünya düz xətlərdən ibarət deyil, bəzən əyri yollar bizi həqiqətə daha yaxın gətirir… Hətta, “Əyri otur, düz danış…”

İstərsəniz də, əlibaltalıların ormanda əyri ağacların yanından ötüb, düz ağaclara yanaşmasını göz önünə gətirin…

Ya da, ən doğrusu, ağaclar və əlibaltalı adamlar qalsın öz yerində, biz Həndəsənin əyrisindən-düzündən Cəbrə keçək:

*Abstraksiyanın şəkilçiliyi…*

Əgər Həndəsə kosmosu təsvir etmək cəhdidirsə, Cəbr kosmosun abstrakt dildə ifadəsidir. Cəbrin yaranması, özəlliklə Əl-Xarəzmi (təq. 780 – təq. 850) kimi alimlərin əsərləri ilə, mədəniyyətin bir dönüş məqamını simvollaşdırır. Bu, yalnız bir riyazi yenilik deyil, həm də insan düşüncəsinin "konkretlikdən abstraksiyaya" keçidi idi…

Cəbr, mədəniyyət baxımından, insanın kainatı simvollar və tənliklərlə izah etməyə başladığı mərhələdir. Onun dili, sanki kainatın melodiyasını yazmağa çalışan bir bəstəçinin notlarıdır. Riyaziyyatı fəlsəfə və poeziya ilə görüşdürən bir körpü quran Cəbr, mədəniyyətə "təcrübə və ideya" harmoniyasını gətirdi.

*Metaforik inceləmə:*
*Düzlüklər, əyriliklər və abstraksiyalar*

Evklid həndəsəsi, belə demək mümkünsə, "insanlığın uşaq yaşları"nı, nizam və qaydalara ehtiyac duyduğu bir mərhələni xatırladır. Bu, sanki bir uşağın düz xətlər çəkərək dünyanı anlamağa çalışması kimidir…

Qeyri-Evklid həndəsəsi isə gəncliyin başqaldırışı, sınırları aşmaq istəyi, dəliqanlılığıdır və "əyrilik" bu mərhələnin metaforik ifadəsidir. İnsan artıq yalnız nizam axtarmır, həm də qeyri-müəyyənlikdə həqiqəti görməyə çalışır.

Cəbr isə yetkinlik dönəminin simvoludur – burada insan düşüncəsi artıq konkret formaları deyil, onların arxasındakı abstrakt ideyaları araşdırır.

*Kulturoloji ismarıc*

Bu üç hadisə, mədəniyyətin inkişaf trayektoriyasını göstərir: düz xətlərdən "əyri yol"lar və oradan da abstraksiyaya… Bu trayektoriya yalnız riyazi deyil, həm də insan düşüncəsinin və mədəniyyətin tarixinin bir ifadəçisidir. İnsan düşüncəsi təkcə faktları deyil, həm də onların arxasında duran anlamları, ritmləri və harmoniyaları axtarmağa davam edir.

Beləliklə, Evklid, Qeyri-Evklid həndəsələri və Cəbrin harmoniyası, mədəniyyətin həqiqət və kainat axtarışında yaratdığı bənzərsiz bir simfoniyadır. Bu simfoniya hələ də davam edir…

P.s.

Evklidin 5-ci postulatı belədir: "Əgər iki düz xəttin üzərinə düşən düz xətt bir tərəfdə iki düz bucaqdan az olan daxili bucaqlar əmələ gətirirsə, qeyri-müəyyən müddətə uzadılırsa, bu düz xətlər bucaqların iki düz bucaqdan az olduğu tərəfdə birləşəcək". Bu postulatı sübut etmək cəhdləri, Qeyri-Evklid həndəsəsinin yaranmasına gətirib çıxartdı və o, Nikolay Lobaçevski (01.12.1792 – 24.02.1856), David Hilbert (23.01.1862 - 14.02.1943) və Bernhard Riemann (17.09.1826 – 20.07.1866) tərəfindən təklif olundu.

TEZLİK: Fizikadan mədəniyyətə…
(Kulturoloji baxış)

Fizikanın tezlik (frekans) anlayışı – müəyyən bir prosesin, məsələn, dalğanın, titrəşimin və ya hər hansı bir periodik hadisənin bir saniyədə neçə dəfə təkrarlandığını göstərir. Bu anlayış, maddənin, dalğaların və enerjinin ritmik təzahür forması kimi, mədəniyyətin dinamikasını anlamaqda unikal bir metafora təqdim edir. Əgər tezlik fiziklərin dilində müəyyən bir titrəşmə və təkrarlılıq ölçüsü kimi qəbul olunursa, mədəniyyətdə bu, toplumların, fərdlərin və ideyaların ritmlərini, dəyişikliklərini, harmoniyasını ifadə edən bir konsept kimi istifadə edilə bilməzmi?

**Mədəniyyətin ritmik təbiəti**

Hər bir mədəniyyət özünəxas bir "ritm"ə malikdir. Bu ritm mədəniyyətin tarixi inkişafını, dəyişiklik və sabitlik arasındakı qarşılıqlı təsiri müəyyən edir. Mədəniyyətlərin "tezliklər"i kimi təsvir ediləbiləcək bu ritmlər, onların dəyərlərini, inanclarını, yaradıcılıq impulslarını və sosial quruluşlarını əks etdirir.

**Aşağı tezliklər:**

Yavaş və sabit dəyişikliklərlə xarakterizə olunan gələnəksəl mədəniyyətlər əsasən dərin tarixi köklərə malikdir. Bu cür mədəniyyətlərdə gələnəklər vasitəsilə davamlılıq nümayiş etdirilir.

**Yüksək tezliklər:**

Sürətli dəyişikliklər, texnoloji yeniliklər və sosial devrimlərlə müşayiət olunan çağdaş mədəniy-

yətlər qeyri-sabitlik və uyğunlaşma ilə xarakterizə olunur.

Tezliklərin kulturoloji yorumu

**Rezonans və uyğunluq:**

Fizikada rezonans hadisəsi müəyyən bir sistemin dış təsirə cavab olaraq ən yüksək titrəyiş tezliyində reaksiya verməsidir. Mədəniyyətdə isə bu, toplumların dış təsirlərə uyğunlaşma və cavabvermə qabiliyyəti kimi yorumlana bilər. Örnək olaraq, Batı çağdaşlaşmasının təsiri ilə Doğu mədəniyyətlərinin yenidən formalaşması rezonansın mədəni ifadəsidir.

**Dəyişiklik və sabitlik:**

Fizikada tezlik dəyişiklikləri bir sistemin enerjisinin dəyişdiyini göstərir. Mədəniyyətdə isə bu, sosial dəyişikliklərin, devrimlərin və ya ideoloji yenilənmələrin dinamikasını əks etdirir.

Örnək:

* Sənaye devrimi, texnologiya əsrinin yüksəlişi və ya rəqəmsal transformasiya mədəniyyətin "tezliklər"inin dəyişdiyini göstərən tarixi məqamlardır.

* Bu dəyişikliklər mədəniyyətin ritmini sürətləndirir, yeni anlamlar və ifadə formaları yaradır; eyni zamanda, müəyyən sabit elementlərin itirilməsinə səbəb ola bilər.

**Harmoniya və disharmoniya:**

Fizikada müxtəlif tezliklər bir araya gəldikdə ya harmoniya (müəyyən bir düzən və nizam) ya da disharmoniya (ahəngsizlik və xaos) yaranır. Mədəniyyətdə də bu prinsip özünü göstərir. Qloballaşma dövründə fərqli mədəniyyətlərin qarşılıqlı təsiri:

* İnkişaf və zənginləşməyə (harmoniya),

* Gərginlik və konfliktlərə (disharmoniya) səbəb ola bilər.

Bu, mədəniyyətlərin "ritm uyğunluğu"nun nə qədər mürəkkəb bir proses olduğunu göstərir.

**Mədəniyyətin şəkillənən tezlikləri**

Hər bir mədəniyyət öz iç harmoniyasını qorumağa və dış təsirlərlə rezonansa girməyə çalışır. Bu "tezliklər"in qarşılıqlı təsiri mədəniyyətin keçmişinə və gələcəyinə dair dərin bilgilər təqdim edir.

* Mədəniyyətin aşağı tezlikləri:

Gələnəklər, tarix və kollektiv yaddaş vasitəsilə ifadə olunur.

* Mədəniyyətin yüksək tezlikləri:

Yeniliklər, texnologiyalar və sürətli dəyişikliklərlə xarakterizə edilir.

**Kultohers:**

Mədəniyyətin tezliyinin (metaforik) ölçüsü

Fizikada tezliyin ölçü vahidi Hz (Hers) ilə təyin olunur. Mədəniyyətin "ritmlər"ini və ya "dinamika"sını ifadə etmək üçün isə kultohers (cultohz) kimi simvolik bir anlayış təklif edilə bilər.

Kultohers nəyi ifadə edə bilər?

1. Mədəni dinamika:

Mədəniyyətin müəyyən bir dönəmdəki dəyişmə sürəti. - Örnəyi, texnologiya əsrində mədəniyyətin "kultohers"i yüksək ola bilər, çünki dəyişikliklər sürətlidir;

2. Əlaqələr və rezonans:

Bir mədəniyyətin digərinə qarşılıqlı təsirinin intensivliyini ifadə edə bilər.

3. Ritmik uyğunluq:

Mədəniyyətin daxili sabitliyini və ya disharmoniyasını (metaforik olaraq) göstərə bilər.

Örnəklər:

* XX əsrin ikinci yarısında texnoloji və sosial devrimlər mədəniyyətin kultohers səviyyəsini xeyli yüksəltdi;

* Lokal mədəniyyətlər qloballaşma prosesində daha yüksək "kultohers"li mədəniyyətlərlə rezonansa girərək öz kimliklərini qorumağa çalışır və s.

Beləliklə,

mədəniyyətin tezliklərini öyrənmək onun sabitlik və dəyişiklik arasındakı tarixi trayektoriyasını, gələcəkdəki mümkün inkişafını anlamaq üçün yeni bir yanaşma təqdim edir. Bu, mədəniyyətin (necə deyərlər) yalnız statik bir obyekt olmadığını, əksinə, ritmik və dinamik bir sistem olduğunu göstərir.

"Kultohers" anlayışı da bu araşdırmada yeni bir perspektiv yarada bilər. Bu konsept kulturoloji diskursda yenilikçi bir yanaşma kimi diqqətəlayiqdir.